**1. Hadisə-nəticə əlaqəsi <u>pozulmuşdur:</u>**

| | Hadisə | Nəticə |
|---|---|---|
| A) | Rusiya ilə "Andlı öhdəliy"in imzalanması | Car-Balakən camaatlığının Rusiyanın tabeliyinə keçməsi |
| B) | Kürəkçay müqaviləsinin imzalanması | Qarabağ və Şəki xanlıqlarının Rusiyanın tabeçiliyinə keçməsi |
| C) | 1801-ci ildə Şərqi Gürcüstanın Rusiyaya birləşdirilməsi | Azərbaycan torpaqlarının Rusiya tərəfindən işğalına başlanılması |
| D) | Georgiyevsk müqaviləsinin imzalanması | Quba və Lənkəran xanlıqlarının Rusiya tərəfindən işğal edilməsi |
| E) | Gülüstan müqaviləsinin imzalanması | İrəvan və Naxçıvanın Qacarların hakimiyyəti altında qalması |

**2. Xəzər xaqanlığının zəifləməsinin səbəblərindəndir:**

A) Monqolların Şərqi Avropaya yürüşləri

B) Konstantinopola hücum zamanı məğlub olması

C) Ərəblərlə və peçeneqlərlə aparılan müharibələr

D) Çin dövləti ilə aparılan müharibələr

E) Dövlətin iki yerə parçalanması

**3. Sultan I Süleymanın üçüncü dəfə Səfəvilər üzərinə hücumuna təsir göstərdi:**

A) Portuqalların Hörmüz limanını tutması

B) Tayfa əmirləri arasındakı çəkişmələr

C) Şəki hakimliyində başlanan üsyan

D) Şah I Təhmasibin Şərqi Anadoluya yürüşü

E) Əlqas Mirzənin Şirvanda qiyam qaldırması

**4. Niderland burjua inqilabının səbəblərindən *<u>deyil:</u>***

A) Yerli tacirlərin ticarət etməsinə məhdudiyyətlər qoyulması

B) Protestantlara qarşı kilsə məhkəmələrinin tətbiq edilməsi

C) İspanların əhali üzərinə ağır vergilər qoyması

D) Ölkədə vətəndaş müharibəsinin baş verməsi

E) Katolik zülmünün geniş yayılması

**5. Əmir Teymurun 1395-ci ildə Dərbənddən şimala yürüşü nəticəsində:**

A) Şimali Qafqazın dağlıq bölgəsi və Azov qalasınadək ərazilər tutuldu

B) Qızıl Ordu dövləti süquta uğradı

C) Cəlairilər dövlətinin bütün ərazisi tabe edildi

D) Osmanlı dövlətinin Asiyadakı torpaqları Teymuri dövlətinə qatıldı

E) Rus knyazları Əmir Teymurun vassalına çevrildi

**6. Göstərilənlərin aid olduğu şəhər:**

- Parfiya dövlətinin paytaxtı idi
- Uğrunda ərəblərlə Sasanilər arasında döyüş baş vermişdi

A) Nineva

B) Ekbatan

C) Kadisiyyə

D) Babil

E) Ktesifon

**7. Finikiya və Yunan şəhər-dövlətləri üçün oxşar cəhətləri müəyyən edin:**

1. Misir və Babillə ticarət əlaqəsi saxlayırdılar
2. Daimi-yaşayış məskənləri koloniyalar salırdılar
3. E.ə. IV əsrdə daxili çəkişmələr nəticəsində süqut etdilər
4. Roma imperiyasına qarşı Karfagenlə müttəfiq idilər

A) 1, 3 B) 2, 3 C) 3, 4
D) 1, 2 E) 2, 4

**8. Qaumata üsyanı ilə bağlı doğru fikirlərdir:**

1. Əhəməni dövlətini midiyalıların idarə etməsini istəyirdi
2. II Kambizin hakimiyyəti illərində baş vermişdi
3. Makedoniya imperiyasına qarşı çevrilmişdi
4. Əhəmənilərin tərkibində olan xalqlar üç il müddətinə vergilərdən azad edilmişdi
5. Atropat tərəfindən yatırılmışdı

A) 1, 4, 5
B) 2, 3, 5
C) 3, 4, 5
D) 1, 2, 3
E) 1, 2, 4

**9. Albaniya ərazisindəki katakomba qəbirlərilə əlaqədardır:**

A) Ellin mədəniyyətinin Albaniyaya təsirini göstərir
B) Kadusi və kaspi tayfaları ilə əlqələndirilir
C) Erkən Tunc dövrünə aiddir
D) Mingəçevir və Qəbələdə aşkar olunmuşdur
E) Alban tayfalarının göy cisimlərinə sitayiş etdiyini sübut edir

**10. Göstərilənlərin aid olduğu dövləti müəyyən edin:**

a. Abdulla xan Ustaclı tərəfindən bu ölkənin ticarət şirkəti ilə müqavilə imzalanmışdı
b. Səfəvi dövləti ilə "əbədi dostluq" haqqında müqavilə bağlamışdı
c. XIX əsrin əvvəllərində Qacarlar dövlətinin daxili işlərinə qarışmaq imkanı əldə etmişdi




A) 1 B) 2 C) 3 D) 4 E) 5

**11. 1739-cu il Belqrad sülhünə görə Osmanlı dövləti və Rusiya müdaxilə etməyəcəkdi:**

A) Bosniyaya
B) Serbiyaya
C) Cənubi Qafqaza
D) İsveçə
E) Şimali Qafqaza

**12. Fransadakı "İnsan və vətəndaş hüquqları bəyannaməsi"ndən *<u>fərqli</u>* olaraq, ABŞ "İstiqlaliyyət bəyannaməsi":**

1. həm də müstəmləkəçilik əleyhinə çevrilmişdi
2. yeni dövlətin yaradıldığını elan edirdi
3. insanların "azad və xoşbəxt" yaşamaq hüquqlarını bəyan edirdi
4. XVIII əsrin II yarısında tərtib olunmuşdu

A) 3, 4
B) 2, 3
C) 1, 2
D) 1, 3
E) 2, 4

**13. Uyğunluğu müəyyən edin.**

I. İ.Nyuton
II. A.Levenhuk
III. M.Lomonosov

a. Üzvi və fiziki kimyanın yaradıcısı sayılır
b. Ümumdünya cazibə qanununu kəşf etmişdir
c. Ali riyaziyyatın əsasını qoymuş alimlərdəndir
d. Rusiyada ilk kimya laboratoriyasının təşkilatçısı idi
e. Cismi 150-300 dəfə böyüdən linza ixtira etmişdi

A) I-d; II-b,c; III-a,e;
B) I-a,b; II-c,d; III-e;
C) I-a,c; II-e; III-b,d;
D) I-e; II-a,b; III-c,d;
E) I-b,c; II-e; III-a,d;

**14.**

**** Azərbaycanın qərb torpaqlarını qorumaq üçün mübarizə aparmışdır***

**** 1034-cü ildə hakimiyyətə gəlmişdir***

**Qeyd edilənlərin aid olduğu hökmdarı müəyyən edin:**

A) Əbüləsvar Şavur
B) II Ləşkəri
C) Əbulhica
D) Məhəmməd ibn Şəddad
E) Fəzl ibn Məhəmməd

**15. Xronoloji ardıcıllığı müəyyən edin**.

1. Bakı Artistlər Cəmiyyətinin təşkil edilməsi
2. "Əkinçi" qəzetinin bağlanması
3. Bakıda ilk qız gimnaziyasının yaradılması
4. Cənubi Qafqaz Müəllimlər seminariyasının Azərbaycan şöbəsinin açılması

A) 3, 2, 4, 1
B) 4, 2, 1, 3
C) 1, 2, 3, 4
D) 3, 1, 4, 2
E) 2, 4, 3, 1

**16. 1907-ci ildə Təbriz əhalisinin şah rejiminə qarşı çıxmasına səbəb oldu:**
A) Məhəmmədəli şahın konstitusiyanın fəaliyyətini dayandırması
B) Tehranda Məclisin dağıdılması
C) Məşrutə hərəkatına qarşı Rusiya və İngiltərə ilə ittifaq qurulması
D) Səttarxanın Tehranda həbs olunması
E) Təbriz Əyalət Əncüməninin fəaliyyətinə qadağa qoyulması

**17. Birinci Dünya müharibəsində Qafqaz Cəbhəsində üstünlüyün rusların əlinə keçməsinə səbəb oldu:**
A) Gürcü və ermənilərdən ibarət dəstələrin Rusiyanın tərəfinə keçməsi
B) Osmanlı dövlətinin Cənubi Qafqaz türklərinin köməyindən imtina etməsi
C) Sarıqamış döyüşündə Osmanlının məğlubiyyəti
D) Qacarlar dövlətinin bitərəfliyini elan etməsi
E) Şimali Azərbaycanda Osmanlıya qarşı döyüşmək üçün "könüllü" dəstələrin yaradılması

**18. XX əsrin əvvəllərində Fransa xarici siyasətinin əsas vəzifəsi hesab olunur:**
A) Almaniyaya qarşı yeni müttəfiqlər tapmaq
B) Böyük Britaniyanın Avropada güclənməsinin qarşısını almaq
C) Vahid İtaliya dövlətinin yaradılmasına mane olmaq
D) Afrikanın şimalında yeni ərazilər ələ keçirmək
E) "Kontinental blokada"nı genişləndirmək

**19. Birinci Dünya müharibəsinin gedişində baş vermişdir:**
A) Almaniya tərəfindən "İldırımsürətli müharibə" planının hazırlanması
B) Müharibə edən bəzi ölkələrdə monarxiyaların devrilməsi
C) Uzaq Şərqdə Rusiya ilə Yaponiya arasında mübarizə
D) İtaliyanın "Üçlər İttifaqı"na qoşulması
E) Balkan dövlətləri arasında ittifaqın qurulması

**20. Qələbə qazanan tərəfi müvafiq olaraq müəyyən edin:**
Qorlitsa döyüşü, Çanaqqala döyüşü, Kaporetta döyüşü, Marna döyüşü
A) Almaniya və Avstriya - Macaristan, Osmanlı, Almaniya və Avstriya- Macaristan, İngiltərə-Fransa
B) Osmanlı, Rusiya, Almaniya və Avstriya - Macarıstan, İtaliya
C) ABŞ, İngiltərə, Fransa, Rusiya
D) Almaniya və Avstriya - Macarıstan, ABŞ, Fransa - İngiltərə, Osmanlı
E) Avstriya-Macarıstan, Osmanlı, Rusiya, Almaniya

**21. XII əsrin I yarısında paytaxt şəhərə çevrilmiş ərazini müəyyən edin.**




A) 1 B) 2 C) 3 D) 4 E) 5

**22. Aşağıdakıların aid olduğu dövlətin ərazisini xəritədə müəyyən edin:**

– XVI əsrin əvvəlində Osmanlılar tərəfindən məğlub edilmişdir.

– XVI əsrin sonlarında ingilislər tərəfindən məğlub edilmişdir.




A) 1
B) 2
C) 3
D) 4
E) 5

**23. Abolistionistlər hərəkatının baş verdiyi dövlət:**

A) Osmanlı
B) ABŞ
C) Yaponiya
D) Böyük Britaniya
E) İspaniya

**24. XIX əsrin 50-ci illərində imzalanmış Paris müqaviləsinin şərtlərinə aiddir:**

A) Bolqarıstan və Rumıniyaya müstəqillik verildi.
B) Azov qalası Osmanlıya qaytarıldı.
C) Qara dəniz bütün ölkələrin ticarət gəmiləri üçün açıq elan edildi.
D) İngiltərə ABŞ-a müstəmləkə kimi baxmaqdan imtina etdi.
E) Rusiya ilk dəfə Baltik dənizi sahillərinə çıxdı.

**25. Babək və Yusif ibn-Sac arasında oxşar cəhət:**

A) Şirvanşahlarla müttəfiq olmaları
B) Ərdəbili paytaxta çevirmələri
C) Xilafətə qarşı mübarizə aparmaları
D) Dərbənd səddini bərpa etdirmələri
E) Bəzz qalasını mərkəz etmələri